*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 01.07.2023*
*Kabul tarihi |Accepted: 20.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Məmmәd Rzayev**

https://orcid.org/ 0009 -0007 -5495 -0893
*Nakhchivan State University, Doctor of Philosophy, Professor, Azerbaijan, mamedrazi@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Rzayev, M., (2023). Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 260-269.

# Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları

***Xülasə***

*Azərbaycanın ümummilli lideri Heydər Əliyevin qətiyyətli xarici siyasəti və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması işinə yaxından cəlb edilmiş, bu sahədəki müxtəlif sülhməramlı proqramlara qoşulmuş və antiterror koalisiyasına yaxından dəstək vermişdir. Bütün bunlar və Qərbə istiqamətlənən iri enerji layihələrinin gerçəkləşdirilməsi, nəticə etibarilə xalqımızın haqlı narazılığına səbəb olan məlum 907–ci düzəlişin, ABŞ prezidenti və dövlət*

*katibinin konqresə müraciəti nəticəsində qüvvəsinin dayandırılması ilə nəticələnmişdir. 907–ci düzəlişin qüvvəsinin dayandırılması Azərbaycan üçün böyük qələbə, Heydər Əliyev siyasətinin isə növbəti ən böyük uğuru idi. Məqalədə dolğun tarixi faktlar əsasında Heydər Əliyevin yeritdiyi xarici siyasət, əldə etdiyi beynəlxalq uğurlar təhlil edilib qiymətləndirilir.*

***Açar Sözlər:*** *Azərbaycan, Heydər Əliyev. xarici siyasət, beynəlxalq uğurlar*

## Hayder Aliyev's Foreign Policy and Azerbaijan's International Success

***Abstract***

*Thanks to the determined foreign policy and political foresight of the national leader of Azerbaijan, Heydar Aliyev, Azerbaijan was closely involved in the creation of the international security system, joined various peacekeeping programs in this field, and provided close support to the anti-terrorist coalition. All this and the implementation of large energy projects directed to the West, as a result, resulted in the termination of the well-known 907th amendment, which caused the rightful dissatisfaction of our people, as a result of the appeal of the US President and the Secretary of State to the Congress. Suspension of the 907th amendment was a great victory for Azerbaijan, and the next greatest success of Heydar Aliyev's policy. The article analyzes and evaluates Heydar Aliyev's foreign policy and international successes on the basis of full historical facts.*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, foreign policy, international success*

### Giriş

Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışınadək Azərbaycanda dövlətin yalnız adı var idi. Dövlət idarə olunmurdu. Xalqın müstəqil dövlətçiliyə olan ümidi itmək üzrə idi. Azərbaycan müstəqil respublika kimi tanınsa da Dünya dövlətləri sırasında yer tuta bilməmişdi. Məhz Heydər Əliyevin qayıdışından sonra Azərbaycan dünya birliyində öz yerini tutdu. Heydər Əliyev qayıdışının ilk günlərindən Azərbaycanın müstəqil dövlətçiliyinin əsaslarını yaratmağa və möhkəmlətməyə, Azərbaycanın daxili və xarici siyasət kursunu milli maraqlar və mənafelər üzərində müəyyənləşdirməyə və həyata keçirməyə başladı.

Heydər Əliyev 1993-cü ilin oktyabr ayının 10-da prezident seçilməsi ilə əlaqədar keçirilən andiçmə mərasimindəki çıxışında demişdir: “Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük, lakin eyni zamanda nəyin bahasına olursa olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Guman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tapacaqdır”

(Əliyev, 1997). Ulu öndərin milli mənafelərə əsaslanan tarazlaşdırılmış xarici siyasəti əsasən aşağıdakı məsələlərin həllinə istiqamətləndirilmişdi.

-Azərbaycanı beynəlxalq aləmdəki təcrid və vəziyyətindən çıxarmaq;

-Azərbaycanın beynəlxalq imicinə zərər vuran məqamları aradan qaldırmaq;

-Haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq;

- Azərbaycan ətrafındakı informasiya blokadasını yarmaq;

-Azərbaycanın taleyində təsiredici rol oynaya bilən dövlətlərlə münasibətlərdə yaradılmış əsassız gərginliyi aradan qaldırmaq;

-Qonşu ölkələrlə münasibətlərin yaxşılaşdırılmasına, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin bərpa edilməsinə və qorunub saxlanılmasına nail olmaq;

-Böyük dövlətlərlə sıx əlaqələr yaradıb bunları daha da genişləndirmək, müxtəlif universal və regional beynəlxalq təşkilatlara qoşulub onlarda fəal iştirak etməklə Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etmək;

-Ölkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaq.

Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və prinsipləri, başlıca istiqamətləri, milli mənafe və yerli şəraitdən irəli gələn xüsusiyyətləri özünəməxsusluğu Heydər Əliyev tərəfindən düşünülmüş elmi nəzəri əsaslara malik bir proqrama çevrilərək, ulu öndərin müəllifi olduğu Azərbaycan konstitusiyasında təsbit olundu: Konstitusiyamızın 7–ci maddəsinin II bəndində göstərilir: “Azərbaycan respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır”. Beynəlxalq münasibətlərin prinsiplərini ifadə edən 10–cu maddədə qeyd olunur ki, “Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur” (Əliyev, 1997).

Heydər Əliyev ilk növbədə cənubi Qafqazada özünün strateji maraqlarını güdən və bu regionda təsir imkanlarına malik olan ölkələrlə qarşılıqlı faydalı münasibətlərin yaradılması istiqamətinə diqqət yönəltdi. Bu baxımdan ulu öndərin Rusiya ilə əlaqə və münasibətlərində əhəmiyyətli dəyişikliklərə nail olması, əlaqələrinm normal inkişafına mane olan problemləri həll edə bilməsi qısa bir müddət ərzində bu ölkə ilə münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması və əməkdaşlığın genişləndirilməsinə səbəb oldu. Azərbaycan Respublikası MDB üzvlüyünə daxil oldu. Heydər Əıiyevin qeyd edirdi ki, “Biz MDB

çərçivəsindən kənarda olduğumuz vaxtdakı vəziyyətimizi araşdırırıq və belə qənaətə gəldik ki, MDB çərçivəsindən kənarda qalmaq ölkənin qarşısında duran problemlərin həllinə kömək etmir"( Xalqa bağışlanan ömür 2004).

Dünyanın ən qüdrətli dövləti olan ABŞ–la münasibətlərin nizama salınıb inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. 1994–cü ilin sentyabrında "Əsrin müqaviləsi" nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni həm də dönüş nöqtəsi oldu. Bu əlaqə və münasibətlərin inkişafının nəticəsi o oldu ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdı və münaqişənin dinc yola həllinə tərəfdar olduğu haqqında bəyənat verdi. Bill Klinton öz bəyənatında göstərirdi "Amerika Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləməkdə davam edir. Geniş səpkili əlaqələri inkişaf etdirməklə biz Amerika Azərbaycan əməkdaşlığını genişləndirəcək əbədi olaraq suveren və çiçəklənən Azərbaycan dövlətinin qurulmasında Heydər Əliyevin səylərinə kömək etməkdə davam edəcəyik" (Əliyev, 1997).

Bu çox əhəmiyyətli bir bəyənat idi. Bu Heydər Əliyev diplomatiyasının, Azərbaycanın əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasət xəttinin növbəti uğuru idi. Azərbaycanın yeni xarici siyasət kursunda Avropa xətti mühüm yer tuturdu. Hər bir Avropa ölkəsinin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni siyasi kurs Azərbaycanın Avropa ilə münasibətlərində dönüş yaratdı və qısa müddətdə böyük uğurlar əldə edilməsi ilə nəticələndi. Azərbaycan özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çox nüfuzlu həmfikirlər əldə etdi. Ulu öndərin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etmişdir.

Azərbaycanın yeni xarici siyasət kursunda qonşu ölkələrlə, habelə müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Bu ölkələrlə münasibətlərdə süni olaraq yaradılmış və həll edilməmiş problemlər mövcud idi. Türkiyə ilə münasibətlərə belə real şəraiti nəzərə alınmadan düzgün yanaşılmamışdır. Çox təcrübəli siyasətçi olan Heydər Əliyev bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaradaraq onlarla qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan sivilizasiyalı münasibətlər qurub inkişaf etdirilməsinə nail oldu.

Azərbaycanın xarici siyasət fəaliyyətinin ən başlıca məqsədlərindən biri də zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları qoşaraq onalrın dəstəyinə nail olmaq idi. Ermənistanın hələ də davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusilə vacib

idi. Ən başlıcası isə bu münaqişəni salan ermənilərin olduğunu onların təcavüzkar niyyətlərini və etdiyi vəhşilikləri dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq idi. Bütün bunlar böyük zəhmət və düşünülmüş diplomatik səylər tələb edirdi ki, bu olduqca çətin idi. Bir işin öhdəsindən yalnız Heydər Əliyev gələ bilərdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məqsədi o idi ki, konflikt beynəlxalq normalara uyğun, dünya ictimaiyyətinin dəstəyi ilə nizama salınsın. Dünya siyasətindən təcrid olunan informasiya blokadasına salınan, haqlı olduğu halda haqsız sayılıb dünya birliyinin qınağına çevrilən, ABŞ konqresinin 1992–ci ildə qəbul etdiyi 907–ci düzəlişlə diskirminasiyaya məruz qalan Azərbaycana yalnız Heydər Əliyevin diplomatik bacarığı və səyləri ilə münasibət dəyişilməyə başladı. Dünyanın bütün demokratik dövlətləri və aparıcı beynəlxalq təşkilatları Azərbaycanın zorla cəlb edildiyi silahlı münaqişədə Azərbaycana qarşı düzgün mövqe tutmadıqlarını anlamağa başladılar.

ATƏT–in, MDB–nin və digər vasitəçilərin səyləri ilə aparılan danaşıqlar nəticəsində 1994–cü ilin mayında Ermənistanla Azərbaycan arasındakı atəşkəs əldə olundu. Heydər Əliyevin xarici ölkələrə rəsmi səfərləri, keçirdiyi görüşləri, Azərbaycana gələn nümayəndə heyətləri ilə görüşləri, beynəlxalq təşkilatlarla apardığı işlər və gərgin diplomatik səyləri Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması sahəsində böyük uğurlara səbəb oldu. Ümummilli liderin diplomatik uğurları ATƏT–in Budapeşt, Lissabon və İstanbul zirvə toplantlarında öz bəhrəsini verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT–in 54 üzvündən 53–ü dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın haqlı mənafelərini əks etdirən prinsipləri birmənalı şəkildə dəstəklədi. Bu Azərbaycan diplomatiyasının uğurları və münaqişənin həll olunmasında keyfiyyətcə yeni mərhələnin başlanğıcı idi.

Dağlıq Qarabağ probleminin həlli ilə bağlı bu məqsədyönlü və səmərəli siyasət artıq öz real nəticələrini verməkdədir. Azərbaycanın diplomatik səyləri Ermənistanın mövqelərini xeyli zəifləmişdir. Münaqişənin nizama salınmasında Minsk qrupunun təkliflərinin Ermənistan tərəfindən dalbadal rədd edilməsi ermənistanı qeyri–konstruktiv ölkə kimi tanıtmışdır. Ermənistan bu gün də münaqişənin həlli üçün təklif edilən Madrid prinsipləri ilə razılaşmayacağını bəyan etmişdir, bu da onun qeyri konstruktivliyinin bir daha təsdiqi olacaqdır.

Ermənistan Azərbaycanın Dağlıq Qarabağ problemin həlli istiqamətində mühüm addımlar atılmaqdadır. Son zamanlar Rusiya və Türkiyənin Dağlıq Qarabağ probleminin həlli istiqamətində səyləri güclənmişdir. Şübhə yoxdur ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll edilməzsə Azərbaycan

bunu öz gücu və imkanı hesabına həll edə bilmək iqtidarındadır. Zaman təpədən-dırnağa haqlı olan Azərbaycanın xeyrinə işlədiyindən biz Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi və diplomatik başarıları sayəsində 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdik.

Azərbaycanın xarici siyasəti çoxşaxəli istiqamətlərdə inkişaf edir. Azərbaycanın dünya birliyinə, Avropa təhlükəsizlik sistemi və NATO strukturlarına inteqrasiyasına yönələn bu istiqamətlər ölkəmizin beynəlxalq siyasətə fəal qoşulmasını təmin edir. Azərbaycanın milli mənafe və maraqlarına xidmət edən xarici siyasət kursunu uğurla reallaşdıran Heydər Əliyev bütün ölkələrlə münasibətlərin dostluq, dinc yanaşı yaşamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qurulmasını təmin edirdi. Ümummilli lider ABŞ və Rusiya ilə, Avropa ölkələri ilə, Çin və Yaponiya ilə, Şərq ölkələri ilə, Asiya Sakit okean regionu, Afrika və Latın Amerikası ölkələri ilə səmərəli, bərabərhüquqlu əlaqələrin yaradılmasına, əməkdaşlığın inkişaf etdirilməsinə nail olmuşdur.

Azərbaycanın xarici siyasəti tarazlaşdırılmış xarakter daşıyır. Bunu ölkəmizin geosiyasi vəziyyəti və üzləşdiyi problemlərin xarakteri tələb edir, Azərbaycan özünün xarici siyasət müstəvisində regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasında manevr imkanlarını qoruyub saxlamaqla, xarici siyasət kursunun tarazlığını təmin edə bilmişdir.

Heydər Əlıiyevin xarici siyasət kursunun mühüm prioritetlərindən biri də Avropa İttifaqı ilə münasibətlərin inkişafıdır. Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində atılan addımlar Avropa Şurasının qurumlarında yüksək qiymətləndirildi və 2000–ci ilin iyununda Avropa Şurası parlament Assambleyası özünün növbəti sessiyasında Azərbaycan Respublikasının bu beynəlxalq quruma tam hüquqlu üzv qəbul edilməsi barədə yekdil qərar qəbul etdi. 2001–ci ilin yanvarın 17 də isə Avropa Şurasının Nazirlər Komitəsi Parlament Assambleyasının bu qərarını təsdiq etdi və beləliklə Azərbaycan Avropa ölkələri ailəsinə daxil oldu. Bununla da Azərbaycanda islahatlar prosesi Avropanın dəstəyi ilə daha da sürətləndirildi. Azərbaycanda sosial iqtisadi inkişafa yönəldilən çoxlu sayda layihələrin həyata keçirilməsinə start verildi. Hüquqi, demokratik dövlət quruculuğu sahəsində uğurlara imza atıldı. Azərbaycanın Avropaya inteqrasiyası keyfiyyətcə yeni mərhələyə daxil oldu. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan prezidenti İlham Əliyev 2004–cü il aprelin 29–da Strasburqda Avropa Şurası Parlament Assambleyası sessiyasının iclasında çıxışında demişdir: “Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyasıdır. Biz bu siyasətimizə möhkəm sadiqik.Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab

versin."(Azərbaycan qəzeti 01 may 2004–cü il). Hazırda Avropa İttifaqı Azərbaycanı "Yeni qonşuluq siyasəti" proqramına daxil etmiş, "enerji dialoqu"nun başlanmasına qərar verilmiş, enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Momerandumu imzalanmışdır" (https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf). Heydər Əliyev xarici siyasət kursunun uğurlarından biri də 2001–ci il 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla yaradılan Antiterror Koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Terrorizmə qarşı mübarizədə Azərbaycan Beynəlxalq qurumlar və ayrı – ayrı dövlətlərlə sıx əməkdaslıq etmişdir. Hava məkanına hücümlara və digər terror aktlarına qarşı Konvensiyanın və ümumilikdə terrorizmlə mübarizəyə dair 12 Beynəlxalq konvensiyanın və protokolun Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunması Beynəlxalq birliklər, eləcə də ABŞ dövlət departamenti tərəfindən yüksək qiymətləndirilmişdir.

Beynəlxalq terorrorizmə qarşı mübarizədə Azərbaycanın qətiyyətli mövqeyi onun antiterror koalisiyasının etibarlı üzvü kimi tanıtmış Azərbaycana həm Erməni terrorizminə qarşı mübarizədə, həm də Azərbaycan–Amerika münasibətlərinin inkişafında uğurlar gətirmişdir. ABŞ və Avropa İttifaqı ilə əməkdaşlığımızın səmərəliyi artırılmışdır.

Heydər Əliyevin qətiyyətli xarici siyasəti və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması işinə yaxından cəlb edilmiş, bu sahədəki müxtəlif sülhməramlı proqramlara qoşulmuş və antiterror koalisiyasına yaxından dəstək vermişdir. Bütün bunlar və Qərbə istiqamətlənən iri enerji layihələrinin gerçəkləşdirilməsi, nəticə etibarilə xalqımızın haqlı narazılığına səbəb olan məlum 907–ci düzəlişin, ABŞ prezidenti və dövlət katibinin konqresə müraciəti nəticəsində qüvvəsinin dayandırılması ilə nəticələnmişdir. 907–ci düzəlişin qüvvəsinin dayandırılması Azərbaycan üçün böyük qələbə, Heydər Əliyev siyasətinin isə növbəti ən böyük uğuru idi.

Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin region dövlətləri ilə qarşılıqlı münasibətlərinin konstruktivliyini və intensivliyini artırdı. Bakı– Tbilisi–Ceyhan neft boru kəməri layihəsinin, bütövlükdə Şərq–Qərb enerji dəhlizinin gerçəkləşməsi iqtisadi maraqları üst–üstə düşən Azərbaycanın, Gürcüstanın və Mərkəzi Asiya dövlətlərinin siyasi mövqelərinin də yaxınlaşmasına və beləliklə regional təklükəsizliyin möhkəmlənməsinə şərait yaratmışdır.

Neft strategiyasının həyata keçirilməsi Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Respublikamıza böyük fayda gətirir. Prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimindəki nitqində inteqrasiya layihələrinin Azərbaycan üçün əhəmiyyətini

səciyyələndirərək demişdir: "Bizim hamımızın məqsədi ondan ibarətdir ki, xalqlarımız bu layihələrdən fayda götürsün. Mən əminəm ki, belə də olacaqdır. Artıq bu boş veribdir.Minlərlə yeni iş yerləri açılıbdır. On minlərlə insanımız maddi fayda əldə etmişdir və bu proses davam edəcəkdir" (Azərbaycan qəzeti, 04 fevral 2004).

Heydər Əliyevin bu uğurli siyasətinin nəticəsi olaraq 2005–ci il fevralın 18– də "Əsrin müqaviləsi" çərçivəsində "Mərkəzi Azəri" platforması, 2006–cı il iyul ayının 13 də Bakı–Tbilisi–Ceyhan kəməri istismara verildi. Beləliklə Azərbaycanın neft strategiyasının həyata keçirilməsində yeni mərhələnin başlanğıcı qoyuldu.

Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin maddi rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının yüksəldilməsi və xarici investisiyaların həcminin artmasına geniş imkanlar yaratdı.

Heydər Əıiyevin neft strategiyasının Azərbaycan üçün açdığı imkanları Azırbaycan prezidenti İlham Əliyev Cenevrədə İnformasoya Cəmiyyəti üzrə ümumdünya sammitindəki nitqində belə dəyərləndirmişdir: "Ölkəmizin əlverişli coğrafi–siyasi mövqeyi Azərbaycanı Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir" (Azərbaycan qəzeti, 11 dekabr 2003).

Ölkəmizdə uğurla həyata keçirilən neft diplomatiyası Azərbaycanı bütövlükdə Cənubi Qafqaz və MDR dövlətləri sırasında enerji asılılığı olmayan dövlətə çevirmişdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri dünya miqyaslı layihələr olmaqla Azərbaycanın enerji təhlükəsizliyinin təminatına geniş imkanlar açır. Bu layihələr eyni zamanda respublikamızın müstəqilliyinin möhkəmlənməsinə və Azərbaycanın regionda müstəqil siyasət aparmasının təminatıdır. Bu layihələr həm də region dövlətlərinin enerji sahəsində qlobal əməkdaşlığının rəmzinə çevrilmişdir. Zəngin neft ehtiyyatlarına malik Qazaxstanın Bakı–Tbilisi–Ceyhan kəmərinə qoşulması buna əyani sübutdur.

Heydər Əliyevin şəxsi təşəbbüsü uzaq görən siyasəti nəticəsində tarixi ipək yolunun bərpası ilə bağlı Şərq–Qərb, Şimal–Cənub kommunikasiya layihələrinin həyata keçirilməsi Azərbaycan bölgələrinin iqtisadi dirçəlişinə zəmin yaratmışdır. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən "Böyük İpək yolu" layihəsi gerçəkləşdirilərkən yeni iş yerləri və istehsal kompleksləri yaradılır, xidmət sahələri təkmilləşdirilir, tikinti işləri və şəhərsalma sürətləndirilir və modernləşdirilir. Bu layihə həm də Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadir olan Azərbaycanın böyük potensial qüdrətini nümayiş etdirir.

Heydər Əliyevin xarici siyasət konsepsiyasının uğurlarından biri də Azərbaycan diasporunun təşkilatlanması və dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə sosial–siyasi və Mədəni əlaqələrinin gücləndirilməsidir. Onun təşəbbüsü ilə 2001-ci ilin noyabr ayının 9-10 da 36 ölkədə yaşayan azərbaycanlıların nümayəndələrinin iştirakı ilə dünya azərbaycanlılarının I qurultayı keçirildi. 2002–ci ilin iyun ayının 5–də isə Heydər Əliyevin sərəncamı ilə xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət komitəsi yaradıldı. 2002–ci ilin dekabr ayının 27 də 11 maddəlik "xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasət haqqında" qanun qəbul edildi. Qanunda xaricdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət siyasətinin məqsədləri və prinsipləri onlarla bağlı iqtisadi, sosial, mədəni, təhsil və dil məsələləri, informasiya sahəsində onlara köməklik göstərilməsi və monitorinqlərin keçirilməsi nəzərdə tutulmuşdur. Qanunda eləcə də xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan respublikası dövlət orqanlarının fəaliyyəti və vəzifələri müəyyənləşdirilmişdir.

**Nəticə**

İndi Azərbaycan çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla iş aparmaq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq və Azərbaycanın problemlərini həll etmək sahəsində böyük əhəmiyyət kəsb edir. Azərbaycan bu gün BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu Beynəlxalq təşkilatların üzvüdür.

Bununla yanaşı Azərbaycan bir çox beynəlxalq təşkilatlarla, başlıca olaraq Avropa İttifaqı, Nato, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə də fəal əməkdaşlıq edir. Azərabaycanın davamlı şəkildə Avroatlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasət kursunun əsas istiqamətlərindən olmuşdur. 1994–cü ildə Azərbaycanın NATO–nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması haqqında çərçivə sənədini imzalayan uzaqgörən siyasətçi Şimali Atlantika ittifaqının Azərbaycanla tərəfdaşlığının əsas prioritetlərini müəyyənləşdirmişdir. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiyası prosesi bu gün də uğurla davam etməkdədir. Respublikamızda NATO təcrübəsindən yararlanaraq, NATO standartlarına cavab verən peşəkar ordu quruculuğu ardıcıl və sistemli şəkildə həyata keçirilir.Azərbaycan alyansın müxtəlif proqramlarında da iştirak edir. Belə ki, ordumuzun zabit və əsgər heyətinin NATO sülhməramlılarının tərkibində Kosovo və Əfqanıstandakı əməliyyatlarda iştirak etməsi beynəlxalq sülh və sabitliyin təminatında Azərbaycan potensialının qiymətləndirilməsidir. Bu gün Azərbaycanın ümummilli lideri tərəfindən əsası qoyulan və azərbaycanı dünyaya tanıdan

xarici siyasət kursu uğurla davam etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan ölkə prezidenti İlham Əliyevə böyük xalq sevgisi vardır və xalqımız onun siyasətini yekdilliklə dəstəkləyir. Bu uğurlu siyasət Azərbaycanı demokratik və inkişaf etmiş dövlətlər sırasına çıxarmışdır.

**Ədəbiyyat**

Əliyev, H. Əlirza oğlu. (1997). Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. İyun, 1993 - may, 1994. K.: 1 (H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- B.) Azərnəşr.

Əliyev, H. Əlirza oğlu. (1997). *Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. İyun, 1993 - may, 1994.* K.: 1 (H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- B.) Azərnəşr.

*Xalqa bağışlanan ömür* [Mətn]: Bu kitab müstəqil Azərbaycan Respublikasının qurucusu, bütün azərbaycanlıların ümuminli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 35 illiyinə həsr olunur (2004). (Tərtibçi. Ə.Əliyev; Elmi red. M.Urud). (V kitab). Şəms.

(2003, 11 dekabr). *Azərbaycan qəzeti.*

(2004, 04 fevral).*Azərbaycan qəzeti*.

https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf